ŞTRİXLİ KODLARIN VERİFİKASİYASI
XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİ HAQQINDA
**MÜQAVİLƏ № _____**

**Bakı şəhəri** **«___»________200__-ci il**

Bu müqavilə Nizamnamə əsasında fəaliyyət göstərən **«QS1 Azərbaycan»** Cəmiyyəti ___________________________ (bundan sonra İcraçı adlanan), bir tərəfdən, və digər tərəfdən_______________________________________________ (bundan sonra Sifarişçi adlanan) aşağıdakı şərtlərlə bağlanır.

## 1. MÜQAVILƏNİN PREDMETI

1.1. İcraçı Sifarişçinin ştrixkod simvollarının beynəlxalq standartlara uyğunluğunun yoxlamasında verifikasiya xidmətlərini göstərir.

## 2. MÜQAVİLƏNİN ŞƏRTLƏRİ

2.1.Verifikasiya xidmətləri Sifarişçinin tərtib etdiyi və hazırki müqavilənin ayrılmaz hissəsi əlavə №1 olan ştrixli kodlarının verifikasiyası üçün Sifarişinə əsasən həyata keçirilir.

2.2. 1.1 maddəsində qeyd edilən xidmətlərin həyata keçirilmə müddəti hər bir ayrı sifariş üzrə aşağıdakı kimidir:
a) 1-10 növ kod nümunələrin çatdırılması vaxtından başlayaraq 2-3 təqvim günü.
b) 11-50 növ kod nümunələrin çatdırılması vaxtından başlayaraq 3-10 təqvim günü.
c) 50 koddan yuxarı – tərəflər arasında razılaşdırılmış müddətində.
2.3.Verifikasiya xidmətləri «QS1 Azərbaycan» MMC-nin ofisində həyata keçirilir.
2.4. Hər bir verifikasiya üçün nümunələr **Sifarişçi tərəfindən** təqdim edilir.
2.5. Verifikasiyanın keçirilməsi və nəticələrinin yoxlanılması qüvvədə olan normativ sənədlər əsasında həyata keçirilir.
2.6. Verifikasiyanın nəticələri sınaq obyekti, tətbiq edilən metodikalar, ölçü vasitələri, verifikasiya avadanlığı, verifikasiya təhlili, nəticələri və tövsiyyələri daxil edən verifikasiyanın keçirilməsi haqqında Protokolu ilə rəsmiləşdirilir.

## 3. TƏCRÜBƏ NÜMUNƏLƏRİ

3.1. Nümunələrin seçimi və onların sınağın aparılması üçün zəruri sayı normativ sənədlərin və sınaq metodikasının tələblərinə uyğun olaraq İcraçı və Sifarişçi tərəfindən razılaşdırılır.
3.2. Sifarişçi verifikasiya üçün fərdi istehlakçı tarasına qablaşdırılmış nümunələri İcraçıya təqdim edir.
3.3. İcraçı verifikasiya keçirdikdən sonra nümunələri Sifarişçiyə qaytarır. Yalnız verifikasiya keçiriləndən sonra «GS1 Azərbaycan » Cəmiyyətin ofisində nümunə kimi verifikasiya edilmiş ştrixkodların bir nüsxəsi saxlanılır.
3.4. Nümunələr və verifikasiya haqqında protokol və digər sənədlər xidmətin dəyəri ödənildikdən sonra Sifarişçiyə qaytarılır.

## 4. MÜQAVİLƏNİN DƏYƏRİ VƏ HESABLAŞMA QAYDALARI

4.1.Ştrikodların verifikasiyasının keçirilməsi üçün xidmətlərin dəyərini Sifarişçi hər bir nümunə üçün tərtib edilən və hazırki müqavilənin ayrılmaz hissəsi əlavə № 2 olan qiymətlərin razılıq Protokoluna əsasən İcraçının hesabına ödəyir.

4.2. Xidmətlərin ödənilməsi təhvil-təslim aktında qeyd edilən müddət çərçivəsində həyata keçirilir.

## 5. TƏHVİL VƏ QƏBUL İŞLƏRİ

5.1.Verifikasiya protokolu xidmətlərin ödənilməsindən sonra hazırki müqavilənin 2.2. bəndində qeyd olunan müddətdə Sifarişçiyə verilir.
5.2. Hər bir ayrı sifariş üzrə xidmətlərin həyata keçirilməi başa çatdıqdan sonra İcraçı göstərilən xidmətlərin təhvil-təslim aktını tərtib edir.
5.3.Hər iki tərəf xidmətlərin görülməsi haqqında təhvil-təslim aktını imzalandığı tarixdən xidmətlər qəbul edilmiş hesab edilir.

## 6. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ VƏ MÜBAHİSƏLİ MƏSƏLƏLƏRİN HƏLL EDİLMƏSİ ARDICILLIĞI

6.1.Müqavilənin şərtlərində göstərilən öhdəliklərin yerinə yetirilmədiyi təqdirdə tərəflər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi üzrə məsuliyyət daşıyırlar.

## 7.MƏXFİLİYİN TƏMİN EDİLMƏSİ

7.1.İcraçı ştrixli kodlarının verifikasiyası üzrə xidmətlərin məxfiliyini təmin etməli və Sifarişçinin yazılı icazəsi olmadan verifikasiya nəticəsini üçüncü şəxsə verməməlidi.

## 8.DİGƏR ŞƏRTLƏR

8.1.Sifarişçi və İcraçı tərəflər hazırki müqavilə üzrə yarana biləcək mübahisə və münaqişələri danışıq yolu ilə həll etməyi öhdələrinə götürürlər.
8.2. Tərəflərin heç bir razılığa gələ bilmədiyi təqdirdə, məsələ Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəməyə çıxarılır.

## 9. MÜQVİLƏNİN MÜDDƏTİ

Müqavilə _____________ tarixdən _______________ tarixədək qədər qüvvədədi.

## 10. TƏRƏFLƏRİN HÜQUQİ ÜNVANLARI

| | |
|---|---|
| **«İcraçı»** | **«Sifarişçi»** |
| Ünvan ________________________ | Ünvan ________________________ |
| VÖEN ________________________ | VÖEN ________________________ |
| ______________________________ | ______________________________ |